# Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq



20 İLLİK TƏRƏFDAŞLIQ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Azərbaycan Respublikası 25 yanvar 2001-ci ildə Avropa Şurasının 43-cü üzvü olmuşdur. Bu günədək ölkə Avropa Şurasının 65 müqaviləsini ratifikasiya etmişdir (və daha yeddisini imzalamışdır), ən vacibləri İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası və onun Protokolları, Avropa Sosial Xartiyası, Avropa Mədəniyyət Konvensiyası, terrorizmlə mübarizə, çirkli pulların yuyulması və korrupsiya ilə mübarizə, uşaqların cinsi zorakılıqdan müdafiəsi, işgəncənin qarşısının alınması, kibercinayətkarlıq, antidopinq, ali təhsil, milli azlıqların müdafiəsi, transsərhəd əməkdaşlıq, idman və digər sahələri əhatə edən konvensiyalardır.




Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevin Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması münasibətilə çıxışı (Strasburq, 25 yanvar 2001-ci il)



Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyev Avropa Şurasının Qızıl kitabını imzalayır (Strasburq, yanvar 2001-ci il)



Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi münasibətilə çıxışı (Strasburq, iyun 2014-cü il)

Üzv olduğu 20 ildən artıq müddətdə Avropa Şurası və Azərbaycan Respublikası təşkilatın standartların müəyyən edilməsi, monitorinq və əməkdaşlıqdan ibarət unikal strateji üçbucağının ayrılmaz tərkib hissəsi olan texniki əməkdaşlıq proqramlarını işləyib hazırlamışlar, bu isə o deməkdir ki, məcburi qüvvəyə malik standartların hazırlanması onların müstəqil mexanizmlər vasitəsilə monitorinqi ilə əlaqələndirilir və onların həyata keçirilməsini asanlaşdırmaq üçün texniki əməkdaşlıqla dolğunlaşdırılır.




**Avropa Şurasının strateji üçbucağı**

2014-cü ildən etibarən əməkdaşlıq fəaliyyətləri milli hakimiyyət orqanları ilə birgə hazırlanmış Avropa Şurasının Azərbaycan üçün ardıcıl Fəaliyyət Planlarını rəhbər tutur: strateji proqramlaşdırma alətləri milli qanunvericiliyin Avropa və beynəlxalq standartlara daha da uyğunlaşdırılmasına və nəticədə müvafiq sahələrdə islahatların aparılmasına töhfə verməsinə yönəlmişdir.

2022-2025-ci illər üçün cari Fəaliyyət Planı 5 aprel 2022-ci il tarixində Bakıda Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriç və Azərbaycan Respublikasının ədliyyə naziri cənab Fikrət Məmmədov tərəfindən təqdim edilmişdir.

Bu Fəaliyyət Planına əsasən, Avropa Şurası və Azərbaycan hakimiyyəti aşağıdakı məqsədlər üçün əməkdaşlıq proqramlarını davam etdirmək barədə razılığa gəliblər:

- Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququ və qərarlarının icrasının təkmilləşdirilməsi;
- cinayət ədliyyəsi sisteminin təkmilləşdirilməsi;
- medianın potensialının daha da artırılması;
- məlumatların qorunmasının gücləndirilməsi;
- gender bərabərliyinin təşviq edilməsi və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə aparılması;
- uşaq hüquqlarının təşviqi;
- sosial hüquqların təmin edilməsi;
- məhkəmə hakimiyyətinin, o cümlədən konstitusiya ədliyyəsinin müstəqilliyinin və səmərəliliyinin artırılması;
- korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə orqanlarının potensialının
- artırılması;
- kibercinayətkarlıqla mübarizə;
- həbsxana sistemində islahatların daha da təkmilləşdirilməsi;
- seçki islahatının aparılması;
- milli hökumət və vətəndaş cəmiyyəti institutları arasında dialoqun genişləndirilməsi;
- ətraf mühitin mühafizəsinə töhfə verilməsi;
- gənclər üçün insan hüquqları təhsilinin təşviqi və məktəblərdə demokratik və inklüziv mühitin inkişafı.

Fəaliyyət Planı həmçinin, ayrı-seçkiliyə qarşı mübarizə, ifadə azadlığı və media, süni intellekt, narkomaniya və narkotiklərin qeyri-qanuni ticarəti və insan alverinə qarşı mübarizə kimi sahələrdə əməkdaşlıq üçün yeni istiqamətlər müəyyən edib.




**Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının (2022-2025-ci illər) Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin, Azərbaycan Respublikasının ədliyyə naziri cənab Fikrət Məmmədovun və Avropa Şurasının Bakı ofisinin rəhbəri cənab Zoltan Hernyeşin iştirakı ilə təqdimatı mərasimi (Bakı, 5 aprel 2022-ci il)**



**Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevlə görüşü (Bakı, 4 aprel 2022-ci il)**

Bu Fəaliyyət Planı, həmçinin BMT-nin 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyinin ölkə səviyyəsində həyata keçirilməsinə töhfə verəcək.

Bu Fəaliyyət Planı üçün nəzərdə tutulmuş ümumi büdcə 9,6 milyon avro təşkil edir. Fəaliyyət Planları Avropa İttifaqı ilə Birgə Proqramlar, Avropa Şurasına üzv dövlətlərin könüllü töhfələri, həmçinin Təşkilatın adi büdcəsi və Avropa Şurasının İnsan Hüquqları Etimad Fondu daxil olmaqla bir çox mənbələr hesabına maliyyələşdirilir.

Avropa İttifaqı və Avropa Şurası Şərq Tərəfdaşlığı ölkələrinə insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində qanunvericiliyin və təcrübənin Avropa standartlarına yaxınlaşdırılmasında dəstək göstərmək məqsədilə birgə təşəbbüsə – Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq[1] proqramına start verib.

Əməkdaşlıq fəaliyyətinin həyata keçirilməsi Avropa Şurasının Bakı Ofisi tərəfindən dəstəklənir və əlaqələndirilir.




**Avropa Şurasının Bakı Ofisində Avropa Şurasının 70 illik yubileyinə həsr olunmuş Açıq qapılar günü (5 may 2019-cu il)**



**2022-ci il Avropa Şəhərciyində Avropa Şurası standartlarının təşviqi (Bakı, 14 may 2022-ci il)**

---

**1 - Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı Avropa İttifaqı və Avropa Şurası tərəfindən maliyyələşdirilir və Avropa Şurası tərəfindən həyata keçirilir.*

## İNSAN HÜQUQLARI

### Avropa İnsan Hüquqları Konvensiyasının milli səviyyədə səmərəliliyinin artırılması

Hüquq mütəxəssislərinin hazırlanması ardıcıl olaraq həyata keçirilən Azərbaycan üçün Fəaliyyət Planları çərçivəsində nəzərdə tutulmuş prioritet istiqamətlərdən biridir. Avropa Şurası Ədliyyə Akademiyası kimi milli təlim institutlarına yardım göstərmişdir. Avropa Şurasının Hüquq Peşəkarları üçün İnsan Hüquqları Təhsili Proqramı (HELP) çərçivəsində 50 hüquqşünas Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) prosedurları və qəbuledilənlik meyarlarına dair kurslar üzrə HELP sertifikatı ilə təltif edilmişdir. 21 oktyabr 2022-ci il tarixində "AİHM qərarlarının Azərbaycan tərəfindən icrasının təkmilləşdirilməsinə dəstək" adlı yeni layihənin icrasına başlanılmışdır.



**"AİHM qərarlarının Azərbaycan tərəfindən icrasının təkmilləşdirilməsinə dəstək" adlı yeni layihənin təqdimatı mərasimi (Bakı, 21 oktyabr 2022-ci il)**




**Avropa Şurasının Hüquq Peşəkarları üçün İnsan Hüquqları Təhsili Proqramı (HELP) çərçivəsində sertifikat verilməsi mərasimi (Bakı, 20 fevral 2019-cu il)**



**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) xanım Səbinə Əliyevanın iştirakı ilə "Ayrı-seçkiliklə mübarizə üzrə təlimçilərin təlimi" (Bakı, 19-21 iyun 2022-ci il)**

### Ayrı-seçkilik

Şərq Tərəfdaşlığı ölkələrində ayrı-seçkilik, nifrət cinayətləri və nifrət çıxışları ilə mübarizə üzrə Avropa İttifaqı/Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq adlı birgə layihəsi çərçivəsində vətəndaş cəmiyyəti fəalları və dövlət qurumları arasında ayrı-seçkiliklə mübarizə üzrə strukturlaşdırılmış dialoqun zəruriliyi Avropa Şurasının dəstəyi ilə vətəndaş cəmiyyəti fəalları və Ombudsman Ofisi arasında keçirilən görüşlərdə təşviq edildi.

## Media peşəkarlığının təşviqi



Regionlarda sosial media fəalları üçün "Mediada nifrət çıxışı və onun qarşısının alınması" mövzusunda təlim (Qəbələ, 9-10 aprel 2022-ci il)

Əvvəlki Fəaliyyət Planları çərçivəsində Bakı və Azərbaycanın müxtəlif regionlarından olan jurnalistlər və sosial media nümayəndələri üçün gender bərabərliyi və materialların həssas yanaşma ilə işıqlandırılması, eləcə də seçkilər, pandemiya və gender əsaslı zorakılıq hallarının etik standartlara əməl etməklə mediada işıqlandırılmasına dair təlimlər təşkil edilib. Bundan əlavə, vəkillər, hakimlər və prokurorlar üçün fərdi məlumatların mühafizəsi və şəxsi həyatın gizliliyi və informasiya əldə etmək üzrə beynəlxalq hüquq normalarına dair təlimlər də keçirilib. 2022-ci ilin iyun ayında "Azərbaycan mediasında gender bərabərliyi və digər etik standartların təşviqi" layihəsinin uğurla başa çatmasından sonra 2022-ci ilin iyul ayından etibarən yeni "Azərbaycanda media peşəkarlığı və informasiya azadlığının təşviqi" layihəsi həyata keçirilməyə başlanmışdır.

## Gender bərabərliyi və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizənin təşviqi

2022-2025-ci illər üçün hazırkı Fəaliyyət Planında gender bərabərliyi və məişət zorakılığı və qadınlara qarşı zorakılıqla mübarizə sahəsində əməkdaşlıq 2018-2021-ci illər üçün əvvəlki Fəaliyyət Planında əldə edilmiş nailiyyətlərə əsaslanır. Avropa Şurası və digər beynəlxalq standartlara uyğun olaraq Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində qanunvericilik və siyasətlərdə boşluqların təhlili hazırlanmış və dövlət qurumlarına təqdim edilmişdir; sənəddə Azərbaycanın milli qanunvericilik və siyasətlərinin bu standartlara daha da uyğunlaşdırılması üçün təkliflər irəli sürülmüşdür. 2020-ci ildə Avropa İttifaqı və Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində icra olunan "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi başlamış və nəşrlər, media və sosial media kampaniyaları vasitəsi ilə 50 000-dən çox şəxs məlumatlandırılmışdır. Eləcə də, 300-ə yaxın dövlət qulluqçusu və vətəndaş cəmiyyəti nümayəndələri mövzu üzrə təlim keçmişdir




"Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda seminar (Şəki, 1 dekabr 2021-ci il)



"Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizədə milli parlamentlərin rolu" mövzusunda tədbir (Bakı, 19 may 2022-ci il)

## Ədalət mühakiməsinin müstəqilliyi və səmərəliliyi

Fəaliyyət Planları və xüsusilə də Avropa İttifaqı/Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının Məhkəmə Sisteminin Səmərəliliyinin və Keyfiyyətinin Artırılması layihəsi çərçivəsində görülən işlər nəticəsində məhkəmə idarəçiliyi ilə bağlı milli qurumların bacarıqları artırılmış, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətlərinin Azərbaycan məhkəmələri arasında yayılmasına dair yol xəritəsi yekunlaşdırılmış, həssas qrupların məhkəmələrə çıxışı və məhkəmə sistemi üçün kommunikasiya strategiyası üzrə alətlər hazırlanmış və məhkəmə qərarlarının icrası sistemində islahatların aparılmasına başlanmışdır.



**Fransa və Niderlandda özəl hüquq-mühafizə sisteminin öyrənilməsi məqsədilə tanışlıq səfəri (Paris, 16-19 sentyabr 2019-cu il)**

## Korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə

Fəaliyyət Planları, xüsusilə də Avropa İttifaqı/Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının “Çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi” layihəsi çərçivəsində Maliyyə Monitorinqi Xidməti, hüquq-mühafizə və məhkəmə orqanları və digər müvafiq dövlət qurumları, eləcə də bir sıra özəl sektor qurumları (banklar, investisiya şirkətləri), qeyri-hökumət təşkilatları və dini qurumlardan ümumilikdə 615 nəfər nümayəndə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və aktivlərin bərpası ilə bağlı müxtəlif mövzularda öz bilik və bacarıqlarını artırmışlar. Dəstək, həmçinin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) haqqında qanunvericiliyin qəbulu, hədəfli maliyyə sanksiyaları haqqında qanunvericilik çərçivəsinin gücləndirilməsi və benefisiar mülkiyyətçilərin reyestrinin yaradılması ilə bağlı sahələrə dair müvafiq rəy və məsləhətlərdən ibarət olmuşdur. Avropa Şurası həmçinin aktivlərin bərpası rejiminin gücləndirilməsinə öz töhfəsini vermişdir.



**Aktivlərin bərpası sahəsində beynəlxalq əməkdaşlıq və qarşılıqlı hüquqi yardım üzrə qabaqcıl təcrübələrə dair seminar (Bakı, 16-17 iyun 2022-ci il)**

Əməkdaşlıq zamanı Azərbaycana müntəzəm səfərlər edən Korrupsiyaya qarşı Dövlətlər Qruplarının (GRECO) və Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə tədbirlərinin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) tövsiyələri nəzərə alınır.



**Kibercinayətkarlıq haqqında məlumat verilməsi (qiymətləndirmə), kibertaksonomiyadan istifadə və İnternetdə Mütəşəkkil Cinayətkarlıq Təhlükəsinin Qiymətləndirilməsi məlumatının verilməsinin koordinasiyası üzrə seminar (Bakı, 26-27 sentyabr 2022-ci il)**

## Kibercinayətkarlıq

Azərbaycan və Avropa Şurası həyata keçirilən Fəaliyyət Planları çərçivəsində Avropa İttifaqı/Avropa Şurası tərəfindən birgə maliyyələşdirilən və Avropa Şurası tərəfindən həyata keçirilən proqramlar vasitəsilə kibercinayətkarlıqla mübarizə sahəsində birlikdə çalışıb. Avropa Şurası, hazırkı Fəaliyyət Planı çərçivəsində kibercinayətkarlıqla bağlı yerli qanunvericiliyi Azərbaycanın 2010-cu ildə ratifikasiya etdiyi Avropa Şurasının Kibercinayətkarlıqla bağlı Budapest Konvensiyasına uyğunlaşdırmaq məqsədilə Azərbaycanın milli hökumət orqanlarına köməklik göstərməyə davam edəcəkdir. Hazırki prioritetlərə kibercinayətkarlıqla mübarizə, qurumlararası, beynəlxalq və dövlət-özəl sektorarası əməkdaşlığın təkmilləşdirilməsi və kibercinayətkarlıq və elektron dəlillərlə bağlı hakimlər, prokurorlar və müstəntiqlərin bacarıqlarının artırılması sahəsində milli strategiyanın qəbul edilməsi daxildir.



**Avropa Şurasının Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birgə təşkil etdiyi "Saxlanma xidmətinin yaxşılaşdırılması üçün məhbuslarla rəftar standartları və hüquqlarına hörmət" mövzusunda təlim (Bakı, 26-27 aprel 2022-ci il)**

## Cəzaçəkmə müəssisələri və polis orqanları

Fəaliyyət Planlarına əsasən, Avropa Şurası Azərbaycan hakimiyyətinə Avropa standartlarına və qabaqcıl təcrübələrə uyğun olaraq cəzaçəkmə müəssisələrinin idarə edilməsi sistemində islahatların aparılmasında, o cümlədən tibbi xidmətin gücləndirilməsində dəstək verib. Səmərəli həyata keçirilməni təmin etmək üçün bütün gözlənilən nəticələrə gender əsaslı yanaşma tətbiq edilir. Avropa İttifaqı/Avropa Şurasının "Penitensiar islahatlara əlavə dəstək"[2] adlı birgə layihəsi 2021-ci ildə yerli QHT-lərin iştirakı ilə uğurla başa çatdırılmışdır. Azərbaycanın cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış 16 nəfər kiçik ailə biznesinə başlamış, 122 azadlığa buraxılmış şəxs peşə hazırlığı yolu ilə peşə bacarıqlarını artırmış, 342 azadlığa buraxılmış şəxs hüquqi yardım, 398 azadlığa buraxılmış şəxs isə psixo-sosial dəstək almışdır.

**2 - Bu layihə Avropa İttifaqı və Avropa Şurası tərəfindən maliyyələşdirilir və Avropa Şurası tərəfindən həyata keçirilir.*

# ■ DEMOKRATİYA

## Gənclər demokratiya uğrunda

Avropa Şurası ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi arasında əməkdaşlıq ardıcıl Fəaliyyət Planları çərçivəsində həyata keçirilir. Azərbaycanın ucqar ərazilərində yaşayan gənc fəallar və liderlər 2017-2018-ci illərdə yaradılmış qeyri-formal gənc təlimçilər şəbəkəsinin təcrübəsindən yararlanaraq regional təlim seminarlarında gənclərin iştirakı və insan hüquqları təhsili üzrə Avropa Şurasının yanaşmaları və təhsil resursları ilə tanış olublar. Azərbaycan Avropa Şurasının Gənclərin Əməkdaşlığı proqramında iştirak edir ki, bu da gənclər və gənclər təşkilatları üçün təlim imkanları və potensialın artırılmasını təmin edir və onların qərar qəbul edilməsində iştirakını asanlaşdırır. "İştirakçılıq və hüquqlara əsaslanan gənclər siyasətinin və dəyərlərə əsaslanan gənclərlə işin inkişafının dəstəklənməsi" layihəsi insan hüquqları sahəsində təhsilin və gənclərin sosial hüquqlara çıxışının təşviq edilməsi, qeyri-formal təhsilin dəstəklənməsi və gənc təlimçilər şəbəkəsinin və gənclər mərkəzlərinin inkişafına yönəlib.



**Azərbaycanda qeyri-formal təhsillə məşğul olan təlimçilər və gənc işçilər üçün seminar (Bakı, 28-30 sentyabr 2022-ci il)**

## Avropa Şurasının Bakı ofisi

Azərbaycan
Bakı şəhəri, Az1010
Üzeyir Hacıbəyli küçəsi 62
Marine Plaza Premium Ofisləri
Tel.: (+994 12) 599 11 62/ 63/ 64/ 65
Faks: (+994 12) 599 05 30
Email: fieldbaku@coe.int
İnternet səhifəsi : www.coe.int/en/web/baku
FB: https://www.facebook.com/CoEinBaku/
Tvitter: https://twitter.com/coe_baku

**Avropa Şurası**
**Fransa, Strasburq, Sedex F-67075**
**Avropa prospekti**
**Tel.: +33 (0)3 88 41 20 00**
**İnternet səhifəsi: www.coe.int**




Avropa Şurası qitənin insan hüquqlarının mudafiəsi sahəsindəki aparıcı təşkilatdır. O, Avropa İttifaqının bünün uzvləri də daxil olmaqla 46 üzv dovlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dovlətləri insan hüquqlarını, demokratiyanı və hüququn aliliyini qorumaq üçün nəzərdə tutulmuş Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıb. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dovlətlərdə həyata kecirilməsinə nəzarət edir.
www.coe.int